10 fevral 2022-ci il RESPUBLİKA

# Tarixin qanlı səhifəsi

**Müharibələr bəşəriyyətə həmişə ağır bəlalar gətirmiş, insanları dözülməz məhrumiyyətlərə, əzab-əziyyətə düçar etmişdir. Bəşəriyyət tarixinə Xocalı soyqırımı ermənilərin xalqımıza qarşı təcavüzü, vəhşiliyi kimi daxil olub.**

> ***"Xocalı hadisələri bir daha onu göstərdi ki, ermənilər Azərbaycanın təkcə torpaqlarına göz dikmək, ərazimizi qəsb etmək yox, xalqımıza qarşı soyqırımı törətmək üçün vəhşi bir yola düşmüşlər. Bu, Xocalı hadisələrində özünü açıq-aşkar büruzə verdi. O dəhşətli gecədə Azərbaycan xalqının ürəyinə bir süngü taxıldı. O süngü bizi sızıldadır. Bu yara hələ sağalmayıb, bağlanmayıb, bu yara qəlbimizdə həmişə olacaqdır. Gecə vaxtı dinc əhaliyə hücum etmək, öldürmək və onlara görünməmiş qəddarlıqla əzab-əziyyət vermək düşmənlərimizin nə qədər vəhşi olduğunu bir daha sübut edir".***
>
> **Heydər ƏLİYEV,**
> **Ümummilli lider.**

Xocalıda baş verənlər soyqırımı aktı olsa da, o zaman Azərbaycanda hakimiyyətdə olan qüvvələrin məsuliyyətsizliyi və səhlənkarlığı üzündən dünya ictimaiyyəti yetərincə məlumatlandırılmamışdır. Yalnız ümummilli lider Heydər Əliyev Azərbaycanda rəhbərliyə qayıdandan sonra erməni millətçilərinin xalqımıza qarşı törətdiyi dəhşətli cinayətlərin miqyası, o cümlədən Xocalı soyqırımı barədə həqiqət dünya dövlətlərinə, beynəlxalq ictimaiyyətin nəzərinə çatdırıldı. 1994-cü il martın 1-də ulu öndər Heydər Əliyev Xocalı soyqırımı ilə əlaqədar fərman imzalamışdır. Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə 26 fevral - Xocalı Soyqırımı və Milli Matəm Günü elan olunmuş, bu barədə bütün beynəlxalq təşkilatlara məlumat verilmişdir. 1997-ci il fevralın 25-də "Xocalı soyqırımı qurbanlarının xatirəsinə sükut dəqiqəsi elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidenti tərəfindən Fərman imzalanmışdır və hər il fevralın 26-da saat 17:00-da soyqırımı qurbanları bir dəqiqəlik sükutla yad edilirlər.

Ümummilli Liderimiz hər zaman Xocalı faciəsinə xüsusi həssaslıqla yanaşırdı. Ulu Öndər hər il faciənin ildönümündə keçirilən matəm tədbirlərində iştirak edir, Xocalı soyqırımını kədər hissi ilə xatırlayırdı. Xocalı faciəsinin Azərbaycan xalqının qan yaddaşı olduğunu dəfələrlə bəyan etmiş ulu öndərimiz hadisələrə beynəlxalq aləmdə əsl siyasi qiymətin verilməsinin zəruriliyini vurğulamış, bu faciənin dünya ictimaiyyətinə çatdırılması üçün xüsusi səy göstərmişdir. Faciəni xalqımızın böyük dərdi adlandırmış Heydər Əliyev eyni zamanda, Azərbaycanın əsrlər boyu keçdiyi mübarizə, milli-azadlıq yolunu şanlı, uğurlu yol kimi dəyərləndirmişdir.

Məlum olduğu kimi, Prezident cənab İlham Əliyev yanvarın 28-də Xocalı faciəsinin otuzuncu ildönümü haqqında Sərəncam imzalamışdır. Sərəncamda deyilir: "Haqq səsimizin dünyaya çatdırılması və Xocalı soyqırımının beynəlxalq aləmdə tanıdılması üçün ötən illər ərzində məqsədyönlü fəaliyyət göstərilmiş, 2008-ci ildən isə bu fəaliyyət "Xocalıya ədalət" beynəlxalq kampaniyası ilə geniş vüsət almışdır. Hazırda Xocalı soyqırımı bir sıra ölkələr tərəfindən tanınmış və faciəyə beynəlxalq siyasi qiymət verilmişdir. Xocalı soyqırımına hüquqi qiymət verilməli və bu dəhşətli faciəni törədənlər öz layiqli cəzalarını almalıdırlar. Azərbaycan xalqı heç bir vaxt Xocalı faciəsini unutmayacaq".

Ölkəmizdə son illər Xocalı soyqırımının bütün dünyada tanınması istiqamətində geniş ideoloji-intellektual işlər görülmüşdür. Birinci vitse-prezident, UNESCO-nun və İSESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın xüsusi səyi, Leyla Əliyevanın təşəbbüsü sayəsində Azərbaycan həqiqətləri, Xocalı faciəsi haqqında kitablar, filmlər, sərgilər dünyanın hər yerində nümayiş olunub. Leyla Əliyevanın İslam Konfransı Təşkilatına daxil olan ölkələrlə birlikdə "Xocalıya ədalət" kampaniyasını uğurla davam etdirməsi nəticəsində okeanın o tayında, Avropada və bir sıra ölkələrdə Xocalı faciəsini soyqırımı kimi tanıyan dövlətlərin sayı getdikcə artır. Azərbaycan gənclərinin də xüsusi fəallığı ilə müşayiət olunan kampaniyalar dünyanın müxtəlif guşələrində Xocalı soyqırımı barədə həqiqətlərin yayılmasında, beynəlxalq ictimaiyyətin diqqətinin erməni təcavüzkarlığının və ağır nəticələrinə cəlb edilməsində mühüm rol oynayıb. Bu faciənin dünyada soyqırımı kimi tanınmasında və haqq işimizin dünya ictimaiyyətinə çatdırılmasında bütün ictimai-siyasi birliklər, ictimai təşkilatlar, türk-Azərbaycan diaspor təşkilatları, tarixçilər, siyasi xadimlərlə yanaşı, hər birimiz bu yolda öz mübarizəmizi yorulmadan davam etdirməliyik.

30-cu ildönümü tamam olan Xocalı soyqırımı qurbanlarının unudulmaz xatirəsi bizi öz mübarizəmizdə mətin, cəsarətli, inadkar olmağa ruhlandırır. Xocalı faciəsi ötən ildən başlayaraq kədərlə yox, qürurla anılır. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, möhtərəm Prezidentimiz cənab İlham Əliyevin qətiyyətli iradəsi ilə İkinci Qarabağ müharibəsi Azərbaycan dövlətinin inamlı qələbəsi ilə başa çatdı. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusu böyük şücaət və yüksək döyüş hazırlığı göstərərək 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan torpaqlarımızı geri qaytardı. Möhtəşəm qələbə nəticəsində Qarabağımız artıq bizimdir. Bu haqq döyüşündə tarix yazan Azərbaycan ordusu tərəfindən məhv edilən düşmən qüvvələri içərisində Xocalı soyqırımının cəlladları da vardı. Tarixi qələbə qazanan ordumuz bu qətliamın günahsız qurbanlarının qisasını aldı. Xocalıda, eləcə də Qarabağ uğrunda həlak olan bütün şəhidlərimizin ruhu əbədi rahatlığa qovuşdu.

Xocalı naləsi, Xocalı harayı bəşər tarixinin ən dəhşətli faciəsi kimi heç vaxt yaddaşlardan silinməyəcəkdir. Xocalıda tökülən qanlar bu torpağın üstündə açılan çiçəklərin rəngidir. Xocalı faciəsi bizim qan yaddaşımızdır. Tarix heç nəyi unutmur. Gəlin, biz də Xocalını və xocalıları unutmayaq.

**M.MİRZƏ,**
**"Respublika".**

